Samir İsrafil oğlu AĞAYEV
doktorant, Azərbaycan Kooperasiya Universiteti
ORCİD İD 0009-0004-4560-8113
samiragayev062@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.02.032

SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ “İNNOVASİYA - İNVESTİSİYA” TANDEMİ: REALLIQLAR VƏ İMKANLAR

Xülasə

Tədqiqatın məqsədi – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə sistemli baxışın təmin olunması, subyektlər üzrə müfəssəl informasiya imkanlarından istifadənin qiymətləndirilməsi, sahibkarlıq fəaliyyətində innovasiya tədbirlərinin icrasının zəruriliyinin müşahidə altına alınması və onun nəticələrinin təcrübi tətbiqinin çoxamilli araşdırmalara məruz qoyulması, investisiya proseslərinə müraciət olunmanın əsaslandırılmasıdır.

Tədqiqatın metodologiyası – müşahidə, qruplaşdırma, müqayisəli təhlil və zəncirvari əlaqə metodlarından istifadə olunmuşdur.

Tədqiqatın nəticələri – sahibkarlıq fəaliyyətinin mütəşəkkil qaydada təşkili zamanı müraciət olunan iqtisadi, istehsal və digər yenilənmələr üzrə yekunların öyrənilməsi, həmin innovasiyaların istehsal və ümumi iqtisadi mərhələlərə təsirinin qiymətləndirilməsi, bəhs olunan yöndə investisiya mənbələrinin araşdırılması və zəruri istiqamətlərə yönəldilməsinin təhlilindən ibarətdir.

Tədqiqatın praktiki əhəmiyyəti – ölkənin iqtisadi sisteminin sahələri və subyektləri üzrə innovasiyaların layihələndirilməsi və reallaşması, onların həyata keçirilməsinə istiqamətləndirilmiş investisiyaların smetalaşdırılması imkanlarının öyrənilməsidir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – sahibkarlıq fəaliyyətinin icra olunmasında “innovasiya – investisiya” tandeminin oynadığı rolun və tutduğu yerin qiymətləndirilməsi, həmin müstəvinin fəaliyyətə tətbiqi nəticəsində yarana bilən situasiyaların qiymətləndirilməsi.

Açar sözlər: sahibkar, sahibkarlıq fəaliyyəti, innovasiya, innovasiya amilləri, investisiya.

Giriş

Müasir iqtisadi inkişaf mərhələsi cəmiyyətin hərtərəfli tərəqqisini tələb etməkdədir. Bu sırada sahibkarlıq fəaliyyəti aparıcı yerlərdən birini tutmaqdadır. Belə ki, çağdaş dövrümüzdə sahibkarlıq fəaliyyəti yeni ideyaların yaradılması, düşüncə və təfəkkür tərzlərinin fəaliyyət sferasına “köçürülməsi” ilə müşayiət olunur [8, səh. 105].

Sahibkarlıq fəaliyyətinin fərqli yönlərdə araşdırmaları nəzərdə tutulmaqdadır. Onların sırasında təchizat, tədarükat, nəqliyyat, logistika, istehsal, reallaşdırma və digər “mərkəzlərin” fəaliyyətlərini sadalamaq mümkündür. Hər bir istiqamət spesifik cəhətlərlə fərqlənməkdədir. Onlar fərdi qaydada bəlli işlərin və vəzifələrin icrası üzrə ixtisaslaşmaqdadır. Onlarla bağlı fərdi yanaşmaların tənzimləmə, planlaşdırma, marketinq kimi istiqamətlər üzrə nümayışı də qanunauyğun və əsaslandırılmışdır.

Sahibkarlıq fəaliyyətinin öyrənilməsi digər komponentlərin qarşılıqlı əlaqə və asılılıqlarına diqqət yetirilməsini tələb etməkdədir. Bu sırada mülkiyyət-iqtisadi sahə, hazır məhsulun növ-tərkib ifadələri, iştiraketmə-təmsilçilik, birbaşa və dolayı əlaqələndirmə və ya vasitəçilik və s. yönlər üzrə münasibətləri öncül olaraq qəbul etmək yerinə düşərdi.

Fəaliyyətin mütərəqqi şəkildə təşkili və həyata keçirilməsi, yeni məhsul (iş, xidmət) növlərinin istehsalının mənimsənilməsi, yeni texnikadan istifadə və müasir texnologiyaların tətbiqi kimi addımlara müraciət olunma sahibkarlıq subyektləri tərəfindən həyata keçirilsə də, “səbəb – nəticə” əlaqələndirilməsinin tələblərindən irəli gəlməkdədir.

Düzgün təşkil olunan sahibkarlıq fəaliyyəti qarşılıqlı əlaqəli fəaliyyət mexanizmlərinin məcmusu kimi çıxış etməkdədir. Onların vahid məqsədə xidmət etməsi və biri-digərini tamamlaması, bu zaman səmərəlilik, ahəngdarlıq, optimallıq kimi prinsiplərin tələblərinə riayət olunması sahib-

karlıq fəaliyyətinin həyata keçirilməsində zəruri şərtlərdən hesab olunmaqdadır.

Sahibkarlıq fəaliyyətinin real vəziyyətinin qiymətləndirilməsi və təhlili çoxsaylı amillərin cəlbi və əlaqəli araşdırmaların icrası nəticəsində mümkün olur ki, bunlardan biri də yenilikçilik fəaliyyətinin mövcudluğu, onun intensivliyi hesab olunmaqdadır. Tədqiqatlar haqqında bəhs olunan göstəricilərin sistemli və kompleks şəkildə həyata keçirilməsini tələb etməkdədir.

Sahibkarlıq fəaliyyəti və yenilikçilik

Sahibkarlıq fəaliyyəti özünün məqsədləri və onlara nailolma yolları, imkanları və reallıqları, maddi, qeyri-maddi və maliyyə resursları, təchizat (tədarük), istehsal (xidmət) və satış fəaliyyəti, nəhayət, gəlir əldə etmək istəyi ilə fərqlənən işgüzar istiqamət hesab olunmaqdadır. Bəhs olunan reallıqların hər biri özünəməxsus “sistem“ləri tərənnüm etdirməkdədir.

İstehsal-fəaliyyət komponentləri və istiqamətləri məzmun etibarı ilə fərdiləşdirilmiş və biri-digərinin davamı olan “manqalar” kimi çıxış etməkdədir. Hər bir manqa artıq bəlli şəkildə formalaşdırılmış (artıq klassikləşən) fəaliyyətin təzahürü kimi çıxış etməkdədir.

İnnovativ inkişaf kursunu seçmış sahibkarlıq subyektləri istər konkret istehsal, istərsə də ümumilikdə təsərrüfat fəaliyyətinin gedişatında yeniliklərin yer almasına çalışırlar. Müxtəlif səbəblərdən irəli gələn transformasiya və təkmilləşmələr digər aparıcı komponentlər və fəaliyyətlərlə tərənnüm olunmaqdadır:

1) maliyyə, texniki-texnoloji, təşkilati amillərin mövcudluğu və icra olunacaq yenilikçi işlərə uyğunluğu;
2) alınan nəticələrin spesifik təsnifləşdirmələrə məruz qoyulması;
3) məhsul, vasitə və üsul, xidmət (iş) və digər elementlərin fərdiləşdirilməsi;
4) onların hər birinin özünəməxsus xarakteristikalarla ifadə olunması və s. [3, səh. 21].

Məzmun etibarı ilə yenilənmə kiçik və ya irihəcmli ola bilər. Yaranmış vəziyyət yeniliyi edən tərəfin hərəkətlərini nizamlamaqdadır. Hazırlanmış və reallaşdırılmış, təcrübədə tətbiqini mümkün edən yeniliklərin smeta sənədləri məbləğlərindən asılı olaraq təsnifləşdirilməkdədir. Həmin yeniliklər əsaslı olduqda, onlara patentlərin alınması mümkündür.

Digər tərəfdən detal və konstruksiyaların üzərində edilən dəyişikliklər kiçik maliyyə resurslarına başa gəlsə də (maliyyə baxımından az əhəmiyyətli olsa da), istər avadanlıqların məhsuldarlıq ifadələrinə, istərsə də əmək məhsuldarlığına birbaşa və ya dolayı təsirlə fərqlənə bilər.

Nəzərdən yayınmamalıdı ki, innovasiyalar birbaşa istehsal proseslərinin tamını və ya ayrı-ayrı komponentlərini əhatə etməklə yanaşı, təchizat-tədarükat sisteminin, yaxud nəqliyyat-logistika və reallaşdırma sistemlərinin fərqli elementlərinə aidiyyatı ilə də fərqlənə bilər [7, səh. 53].

Göründüyü kimi, istehsal (xidmət) subyektlərində yenilikçiliyin tədqiqat altına alınması üfuqi və şağuli istiqamətdə icra olunan innovasiyaları sərgiləmiş olur. Onlar iqtisadi sistemin sahəsi, məzmun, təsərrüfat vahidinə və ya onun istənilən bölməsinə aidiyyat, maliyyələşmə forması və həcmi və digər əlamətlər baxımından fərqlənməkdədir.

İnnovasiyaların tərkib elementləri kimi yeni məhsulun yaradılması, bəhs olunan yöndə elmi-tədqiqat işlərinin icrası və mütərəqqi texnologiyaların tətbiqi əsasında fəaliyyət mərhələlərinin kəmiyyət-keyfiyyət dəyişikliklərinə məruz qalması, istehsal imkanlarının və sahələrinin genişləndirilməsi, onun növ-çeşid ifadələrinin artırılması, həmçinin təchizat proseslərində yeni növ xammal və materiallardan istifadənin mümkünlüyü, satış-hesablaşma proseslərində istehlakçıları məmnun edəcək yenilikçi üsul, mexanizm və vasitələrə müraciət olunması qəbul olunmaqdadır.

Parantez açaraq bir nüansı qeyd edək ki, yeni texnologiyaların işlənib hazırlanması və tətbiqi zamanı sahibkarların hər biri idarə etdikləri müəssisələrin texnoloji üstünlüklərindən istifadə etməyə çalışmalıdırlar.

İnnovasiyalar və əlaqəli investisiyalar

İnnovasiyalar ölkə miqyaslı fəaliyyəti əks etdirməklə yanaşı sahibkarlıq fəaliyyətinin səviyyəsində icra olunan fəaliyyətləri də əks etdirə bilər. Əgər makrosəviyyəli (ölkə, region miqyaslı) innovasiyalar əsasən tənzimləmə, təşkilatlanma, elektron-hesablama və proqramlaşdırma alət və vasitələri, sahə yaxud region miqyaslı xidmətləri xarakterlidirsə, mikrosəviyyəli yenilənmələr

istehsal və xidmət subyektləri üzrə elmi-araşdırma, texniki-texnoloji təchizat və digər yönləri əhatə etməkdədir [6, səh. 289].

İnnovasiyalara sahibkarlıq kontekstindən yanaşılması bir çox xüsusiyyətlərlə tərənnüm olunmaqdadır. Amerikalı iqtisadçı Yozef Şumpeterin 1912-ci ildən bəri “yetirməsi” olan innovasiya günümüzdə özünün dəqiq məzmunu, sistemliliyi və kompleksliliyi ilə fərqlənməkdədir. Böyük İqtisadi Ensiklopediyada qeyd olunduğu kimi, “innovasiya – texnika və texnologiyanın yeni növlərini təmin edəcək bir proses kimi vəsaitlərin iqtisadiyyatda yerləşdirilməsi kimi başa düşülməkdədir. Geniş mənada innovasiya elmi-texniki, intellektual potensialı səfərbər edərək, səmərəliliyi və digər iqtisadi fərqlənmələrə nail olunmanı əhatə edən məqsədyönlü tədbirlər sistemidir. Texnologiya istehsalı sferasında və idarəetmədə yeniliyi ifadə edən latın mənşəli isim kimi innovasiya yeniləşmə mənasında şərh olunur” [9, səh. 9].

2020-2022-ci illər üzrə statistik informasiyalar istehsal, iqtisadi və digər innovasiyaların müxtəlif səbəblər üzrə təsnifləşdirilməsini sərgiləməkdədir. Onların illər üzrə məbləğləri 110-286 milyon manat intervalında tərəddüd etmişdir.

İnnovasiyaların icra olunması və tətbiqi sahəsində sənaye aparıcı mövqedə durmaqdadır. Digər tərəfdən isə həmin subyektlər üzrə innovasiyalar baxımından onların texnoloji hissəsi sahibkarlar tərəfindən daha cazib və fəaliyyəti sürətlə irəli aparan amil kimi qəbul olunandır. Məsələyə “sənaye sahəsi – texnoloji innovasiyalar” aspektindən yanaşdıqda ilk növbədə cədvəl 1-in məlumatlarına diqqət yetirmək məqsədəuyğun olardı.

Cədvəl 1.

Fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat

Göstəricilər	2005	2010	2015	2020	2021	2022
Bütün sənaye	**53273,0**	**8139,0**	**35179,1**	**35919,8**	**5848,3**	**22540,4**
O cümlədən:						
1. yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi	853,5	2550,8	13283,3	7000,0	3262,1	3462,4
2. texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması	1782,0	5052,7	12764,5	15292,7	447,0	1869,1
3. yeni texnologiyaların alınması	50630,0	-	3022,1	1754,5	39,1	16083,7
4. proqram vəsaitlərinin alınması	-	-	859,5	8497,7	108,2	923,7
5. yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi	4,6	300,1	5202,0	3000,0	1500,0	1,5

Mənbə: [11].


Cədvəl 1-in məlumatları əsasında ilk növbədə qeyd oluna bilər ki, 2005-ci illə müqayisədə 2022-ci ildə innovasiya xərclərinin səviyyəsi 2,4 dəfə azalmışdır. Digər tərəfdən, bütün sənayenin tərkibində “yeni texnologiyaların alınması” maddəsinin böyük xüsusi çəkiyə malik olması tədqirəlayiq haldır. Amma müqayisələr göstərir ki, bir tərəfdən həmin maddənin həcmi 2005-ci illə müqayisədə 2022-ci ildə 34546,3 min manat azalmış, onun xüsusi çəki ifadəsi isə 2005-ci ildəki 95%-dən 2022-ci ildə 71,4%-ə enmişdir. Daha dərin təhlillər təsir amilləri sırasında obyektiv amillərlə yanaşı subyektiv amillərin olduğuna da diqqəti çəkməkdədir.

Öz növbəsində yeni məhsulların və xidmətlərin istehlakının növ-çeşid, istiqamət və digər yönlər üzrə zənginləşdirilməsi məqsədilə yenilənmələrə xərcləmələr səviyyəsində də vəziyyət heç də arzuolunan kimi qiymətləndirilə bilməz. Düzdür, 2005-ci illə müqayisədə 2022-ci ildə bu göstərici üzrə 4,1 dəfəlik artım müşahidə olunsa da, lakin həmin istiqamətin 2022-ci ildəki səviyyəsinin 2015-ci illə müqayisədə 3,9 dəfə, 2020-ci illə müqayisədə 2,0 dəfə gerilədiyinə şahidlik etməkdəyik.

İnnovasiyalara mane olan amillər

İnnovasiya xarakterli fəaliyyətlər “lokal” xarakter daşımamaqdadırlar. Belə ki, istənilən işlərin icrası onlarla əlaqəli şəkildə fəaliyyəti təmin olunan komponent və elementlərin ahəngdar fəaliyyətinə şərait yaradılmalıdır. Bu sırada eyni zamanda nəzərdən yayınmamalıdır ki, innovasiya proseslərinə təsir edən istənilən amil müsbət məqamları ilə yanaşı mənfi təsirləri ilə də tərənnüm oluna bilər. Ona görə də hər hansı amilin seçilməsi, onun ümumilikdə digər amillərlə birgə istifadəsinin nə dərəcədə səmərəli, məqsədyönlü olması, bəzi amillərin imkanlarının kəmiyyət səviyyələri üzrə optimal ölçülərinin aydınlaşdırılması, bu istiqamətdə icra olunan digər əlaqəli işlər innovasiya proseslərinə təsir edən amilləri xarakterizə etməkdədir.

Ümumiyyətlə, subyektlərdə icra olunan innovasiya proseslərinə təsir edən amillər elmi-araşdırma müstəvisində nümunəvi qaydada aşağıdakı kimi təsnifləşdirilə bilər (sxem 1.).



Sxem 1. İnnovasiya proseslərinə təsir edən amil qrupları

Mənbə: [10, səh. 84].

Sxem 1-dən də aydın olduğu kimi, innovasiya proseslərinə təsir edən aparıcı qrupları yeddi istiqamət üzrə təsnifləşdirmək olar. Onların hər biri öz məcmuları daxilində yeniləşdirmə proseslərinə töhfələrini verməkdədir.

Sahibkarlıq fəaliyyətinin innovativ qiymətləndirilməsində onun inkişafına təsir edən amillərlə yanaşı bu işlərə mane olan faktorlar da mövcuddur. Rəsmi statistik informasiyalarda maneə faktorları üç qrupda birləşdirilməkdədir: ümumi iqtisadi, lokal istehsal və digər amillər. Öz növbəsində maneə amillərinin bölmələri aşağıdakılardır:

a) əsas və ya həlledici amillər;

b) əhəmiyyətli amillər;

c) az əhəmiyyətli amillər.

Bəhs olunan yöndə həqiqi təcrübi vəziyyətin aydınlaşdırılması məqsədilə maneə olan amillərin sənaye sahəsindəki dinamik qruplaşdırmalarına baxaq (cədvəl 2).

Cədvəl informasiyası ancaq miqdar ifadəsində təqdim edildiyi üçün onların dəyərcə qiymətləndirilməsi mümkün deyildir. Bununla belə zərurət yarandıqda sənaye subyektləri tərəfindən lazımi hesablama-qiymətləndirmələr icra oluna bilər. Bununla belə ümumiləşdirilmiş ifadələrə müraciət olunarsa, ilkin qiymətləndirmə aşağıdakı şəkli ala bilər (cədvəl 3).

Cədvəl 2.

Sənaye müəssisələrində innovasiyalara mane olan amillər

Göstəricilər	İnnovasiyalara mane olan amilləri aşağıdakı kimi dəyərləndirən müəssisələrin sayı								
	əsas və ya həlledici			əhəmiyyətli			az əhəmiyyətli		
	2020	2021	2022	2020	2021	2022	2020	2021	2022
İqtisadi amillər									
öz pul vəsaitinin kifayət qədər olmaması	13	10	9	27	32	25	8	10	10
dövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmaması	8	5	4	7	8	5	15	18	21
təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması	3	2	3	16	13	13	9	18	14
yeniliklərin dəyərinin yüksək olması	4	5	4	17	22	20	6	15	13
yüksək iqtisadi risk	5	11	11	14	20	22	10	6	6
təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətlərinin uzun olması	3	2	6	10	12	11	19	27	26
İstehsal amilləri									
müəssisənin innovasiya potensialının aşağı olması	7	10	11	12	13	10	8	5	3
ixtisaslı işçilərin çatışmaması	3	3	2	11	12	10	19	17	21
yeni texnologiyalar haqqında informasiyanın çatışmaması	3	3	2	10	7	6	11	19	17
müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi	3	1	1	13	17	15	8	12	8
satış bazarları haqqında informasiyanın çatışmaması	1	1	1	6	15	13	12	12	10
digər müəssisələr və digər elmi təşkilatlar ilə kooperasiya üçün imkanların olmaması	-	-	-	3	5	2	16	22	21
Digər amillər (səbəblər)									
daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması	-	-	-	10	13	11	12	8	5
innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ-hüquqi sənədlərin olmaması	1	4	3	10	11	11	6	5	3
innovasiya prosesi müddətinin qeyri-müəyyən olması	1	1	1	5	5	3	13	15	12
innovasiya infrastrukturunun (vasitəçilik, informasiya, hüquq, bank və s.xidmətlərinin) inkişaf etməməsi	1	2	1	13	14	10	7	6	4
texnologiyalar bazarının inkişaf etməməsi	2	1	1	7	7	5	13	12	9

Mənbə: [12].

Cədvəl 3.

Sənaye müəssisələrində innovasiyalara mane olan amillər

İllər	Ümumi	İqtisadi	İstehsal	Digər
“əsas və ya həlledici amillər” qrupu üzrə				
2020	58 (100%)	36 hal (62,1%)	17hal (29,3%)	5 hal (8,6%)
2021	60 (100%)	34 hal (56,7%)	18 hal (30%)	8 hal (13,3%)
2022	59 (100%)	36 hal (61,0%)	17hal (28,8%)	6 hal (10,2%)
“əhəmiyyətli amillər” qrupu üzrə				
2020	191 (100%)	91 hal (47,6%)	55 hal (28,8%)	45 hal (23,6%)
2021	214 (100%)	95 hal (44,4%)	69 hal (32,2%)	50 hal (23,4%)
2022	181 (100%)	85 hal (47,0%)	56 hal (30,9%)	40 hal (22,1%)
“az əhəmiyyətli amillər” qrupu üzrə				
2020	185 (100%)	67 hal (36,2%)	67 hal (36,2%)	51 hal (27,6%)
2021	214 (100%)	94 hal (43,9%)	74 hal (34,6%)	46 hal (21,5%)
2022	203 (100%)	90 hal (44,3%)	80 hal (39,4%)	33 hal (16,3%)

Mənbə: cədvəl 2-nin məlumatları əsasında hazırlanmışdır.

Hər üç amil üzrə illərin nəticələrində 2021-ci ildə amillərin say nəticələrinin ən yüksək olduğu müşahidə edilməkdədir. Belə vəziyyət əsasən iqtisadi (xüsusi maliyyə vəsaitlərindəki çatışmazlıq (31,0%), innovativ yeniliklərin dəyər (21,8%) və risklilik səviyyəsinin (20,7%) yüksəkliyi və s.) və istehsal (innovasiya potensialının yetərsizliyi (19,4%) və peşəkar işçilərin çatışmazlığı (18,3%), subyektlər tərəfindən yeniliklərin qəbul edilməməsi (25,0%) və satış-mübadilə məkanları haqqında məlumatlandırmanın məhdudluğu (18,9%) və s.) “əhəmiyyətli” amillərinin hesabına mümkün olmuşdur. Bununla yanaşı “digər amillər” qrupunda vasitəçilik, hüquq, bank, məlumatlandırma və digər istiqamətlərdəki infrastruktur şəbəkəsində yenilənmələrin demək olar ki, yer almaması həmin qrupda 37 əhəmiyyətli halla (27,4%) təmsil olmaqdadır. Həmin qrupda “az əhəmiyyətli” kimi qiymətləndirilən innovasiya proseslərinin qeyri-müəyyənliyi istiqamətindəki 40 hal (30,7%) da mövcuddur. Fikrimizcə, təsnifatda göstərilən istiqamətlər öz növbəsində təhlilin məzmununu da ifadə etməkdədir.

İnnovasiya prosesləri özündə fərqli sferalarda yenilənmələri ifadə etsə də, lakin onların təcrübi müstəvidə heç də həmişə hamar olmadığı təsdiqlənməkdədir. Bəhs olunan yöndə bir çox amil mövcuddur ki, onlar innovasiya proseslərinə mane olan amillər qrupunda yer almışdır. Bölmələr üzrə innovasiya qrupları nəzərə alınmaqla həmin amillərin tərkib ifadələrini aşağıdakı kimi ifadə etmək mümkündür:

1. “əsas və həlledici amillər” qrupu üzrə:

✓ 2020-ci ildə innovasiyalara mane olan fakt sayı 58 olmuşdur ki, onlardan da 36 hal (və ya 62,1%) iqtisadi amillərin, 17 hal (və ya 29,3%) istehsal amillərinin, və 5 hal (və ya 8,6%) digər amillərin payına düşmüşdür;

✓ 2021-ci ildə mane olan amillərin ümumi sayında (60 hal) artım baş vermiş, və amil qrupları üzrə “say - xüsusi çəki” aspektində məlumatlar aşağıdaki kimi olmuşdur: 34 hal (56,7%), 18 hal (30%) və 8 hal (13,3%);

✓ Öz növbəsində həmin amil qrupunun 2022-ci ildəki vəziyyəti ümumi həcmdə 59 halla xarakterizə olunur ki, onlardan da iqtisadi amillərin payına 36 hal (61,0%), istehsal amillərinin – 17 hal (28,8%) və digər amillərin – 6 hal (10,2%) düşməkdədir;

2. “əhəmiyyətli amillər” qrupu üzrə:

✓ 2020-ci ildə innovasiyalara mane olan fakt sayı 191 olmuşdur ki, onlardan da 91 hal (və ya 47,6%) iqtisadi amillərin, 55 hal (və ya 28,8%) istehsal amillərinin, və 45 hal (və ya 23,6%) digər amillərin payına düşmüşdür;

✓ 2021-ci ildə mane olan amillərin ümumi sayında (214 hal) artım baş vermiş, və amil qrupları üzrə “say - xüsusi çəki” aspektində məlumatlar aşağıdaki kimi olmuşdur: 95 hal (44,4%), 69 hal (32,2%) və 50 hal (23,4%);

✓ Həmin amil qrupunun 2022-ci ildəki vəziyyəti ümumi həcmdə 181 halla xarakterizə olunur ki, onlardan da iqtisadi amillərin payına 85 hal (47,0%), istehsal amillərinin – 56 hal (30,9%) və digər amillərin – 40 hal (22,1%) düşməkdədir;

3. “az əhəmiyyətli amillər” qrupu üzrə:

✓ 2020-ci ildə innovasiyalara mane olan fakt sayı 185 olmuşdur ki, onlardan da 67 hal (və ya 36,2%) iqtisadi amillərin, 67 hal (və ya 36,2%) istehsal amillərinin, və 51 hal (və ya 27,6%) digər amillərin payına düşmüşdür;

✓ 2021-ci ildə mane olan amillərin ümumi sayında (214 hal) artım baş vermiş, və amil qrupları üzrə “say - xüsusi çəki” aspektində məlumatlar aşağıdaki kimi olmuşdur: 94 hal (43,9%), 74 hal (34,6%) və 46 hal (21,5%);

✓ Həmin amil qrupunun 2022-ci ildəki vəziyyəti ümumi həcmdə 203 halla xarakterizə olunur ki, onlardan da iqtisadi amillərin payında 90 hal (44,3%), istehsal amillərinin – 80 hal (39,4%) və digər amillərin – 33 hal (16,3%) fiksasiya olunmaqdadır.

Hesablamalardan göründüyü kimi, innovasiyaların reallaşmasına mane olan amillər əsasən mikromiqyaslılığı ilə fərqlənməkdədir. Bununla belə həmin faktlardan hər biri istehsalın, məhsuldarlığın və digər göstəricilərin geriləməsinə, bir çox iqtisadi və sosial göstəricilərin səviyyəsinin azalmasına, nəticədə isə ölkənin və ya regionların büdcələrinə daxil olması nəzərdə tutulan vəsaitlərində kəsirin müşahidəsinə yol açmaqdadır.

Nəticə

İnnovasiyalar istənilən ölkənin iqtisadi və sosial quruluşunda, onun texniki və texnoloji səviyyələrində irəliləmələrində, transformasiya və təkmilləşdirmə proseslərində mühüm təkanverici amillərindən hesab olunmaqdadır. İstehsalların səviyyələrinin yüksəlməsi, işçi heyətinin daha peşəkar səviyyədə öhdəsində olan vəzifələri icra etməsi, hasil (istehsal) edilən məhsulların istehlakçıların tələblərinin daha əhatəli şəkildə ödəməsi innovasiya proseslərinə gedilməsinin əsas səbəblərindəndir.

Fərqli yönlər üzrə müşahidə və qiymətləndirmə altına alınan innovasiya fəaliyyəti kifayət qədər şaxələndirilmiş və fərdi bloklar şəklində tərənnüm olunan sistemi əks etdirməkdədir. Ştimullaşdırıcı, tənzimləyici, təkmilləşdirici, transformativ və digər xarakerlərlə ifadə olunan makromiqyaslı innovasiyalar bəzi hallarda ölkənin iqtisadi, o cümlədən sosial sferalarının inkişaf yönünə həlledici təsirlərlə fərqlənməkdədir.

İnnovasiyalar digər xüsusiyyətlərlə yanaşı xərc elementi kimi də çıxış etməkdədir. Onların həyata keçirilməsi müxtəlif mənbəli investisiyalar hesabına mümkündür. Öz növbəsində məqsədli kapital qoyuluşlarını ifadə edən investisiyalar daxili quruluş, yönəldilən istiqamət (obyekt) və digər amillər baxımından təsnifləşdirilməkdədir.

Haqqında bəhs olunan və “innovasiya - investisiya” müstəvisinə aidiyyatı ilə fərqlənən müddəalar tədqiqatın əhatə dairəsinə dəlalət edir. Öz növbəsində yenilənməyə və mütərəqqiləşməyə yönələn fəaliyyətin reallaşması investisiyalarsız, yəni görülən işlərə görə edilən xəclərin maliyyələşdirilməsinin zəmini olmadan mümkün deyildir.

ƏDƏBİYYAT

1. Allahverdiyev H.B. və b. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: Nasir, 2002, 446s.
2. Atakişiyev M.C., Abbasov H.M., Abbasova N.M. Mikro və makroiqtisadiyyat. Bakı: Azərnəşr, 2010, 508s.
3. Bağırov M.S.Makroiqtisadi tarazlıq: problemlər, qiymətləndirmə və təhlil fəaliyyəti. Naxçıvan: Əcəmi, 2023, 216s.
4. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman, 2002, 618s.

5. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı: Qərənfil. 2006, 591s.
6. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı: Elm, 2015, 466s.
7. Mahmudov C.İ., Bağırsoylu H.Q. Sosial-iqtisadi inkişafın proqnozlaşdırılması. Naxçıvan: Əcəmi, 2019, 264s.
8. Mahmudov C.İ. Biznes: əsasları, təşkili və idarəedilməsi. Dərs vəsaiti, Naxçıvan, İdeya, 2011, 272 səh.
9. Səmədzadə Z.Ə. Böyük İqtisadi Ensiklopediya. III cild. Bakı, "Şərq-Qərb", 2012, 608 səh.
10. Устинов В.А. Управление инновационной деятельностью в процессе создания новой техники, освоения производства новой продукции. М., ГАУ, 2012, 329 стр.
11. stat.gov.az/source/industry/az/019_4
12. stat.gov.az/source/industry/az/019_5

Самир Исраил оглы Агаев
Докторант, АКУ

Тандем «Инновация - Инвестиция» в предпринимательской деятельности: реалии и возможности

Резюме

Цель исследования – обеспечение системного подхода в претворении в жизнь предпринимательской деятельности, оценивание возможностей использования возможной информации по субъектам, взятие под наблюдение необходимости выполнение инновационных мероприятий в предпринимательской деятельности, вовлечение практического применения их результатов многофакторным исследованиям, обоснование обращения к инвестиционным прцессам.

Методология исследования – использование методов наблюдения, группирования, сопоставительного анализа и цепных отношений.

Результаты исследования – изучение результатов по экономическим, производственным и другим новшествам, обращенным во время организации по всесторонним правилам предпринимательской деятельности, оценивание влияния этих инноваций на производственных и общеэкономических стадиях, исследование инвестиционных источников в этом направлении, проведение необходимых анализационных работ

Практическое значение исследования – проектирование и реализация инноваций по отраслям и субъектам экономической системы страны, изучение возможностей смет инвестиций, направленных на претворение в жизнь по инновациям.

Оригинальность и научная новизна исследования – оценивание роли и занимаемого места тандема «инновация - инвестиция» при выполнении предпринимательской деятельности, оценивание ситуаций, возможных при применении этой плоскости деятельности на практике.

Ключевые слова: предприниматель, предпринимательская деятельность, инновация, инновационные факторы, инвестиция.

Samir İsrail Agayev
Doctoral student of AKU

"Innovation - Investment" tandem in entrepreneurial activity: realities and opportunities

Summary

The purpose of the study is to provide a systematic view of the implementation of entrepreneurial activity, to evaluate the use of detailed information opportunities for subjects, to

observe the necessity of implementing innovation measures in entrepreneurial activity and to subject the practical application of its results to multifactorial research, to justify the application to the investment process.

Methodology of the research - using observation, grouping, comparative analysis and chain link methods.

The results of the research - study of conclusions on economic, production and other innovations applied during the organized organization of entrepreneurial activity, evaluation of the impact of those innovations on production and general economic stages, investigation of investment sources in the mentioned direction and analysis of directing them in the necessary directions

The practical significance of the research – the design and implementation of innovations in the fields and subjects of the country's economic system, the study of the possibilities of estimating investments directed to their implementation .

The originality and scientific novelty of the research - assessment of the role and place of the “innovation-investment” tandem in the implementation of entrepreneurial activity, assessment of the situations that may arise as a result of the application of that level to activity.

Keywords: entrepreneur, entrepreneurial activity, innovation, innovation factors, investment.